# Böyük qələbəyə az qalıb, Vətən!

*Bu gün Azərbaycan Ordusunun şəxsi heyəti ata-babalarımızdan bizə yadigar qalan Vətəni erməni hərbi birləşmələrindən azad etməklə, hərb tariximizin yeni səhifəsinin qızıl hərflərlə yazılmasına öz töhfəsini verir. Artıq Azərbaycan xalqının milli maraqları naminə Cəbrayıl, Füzuli, Zəngilan, Hadrut, Suqovuşan, Qubadlı və onlarla yaşayış məntəqələrimiz azadlığına qovuşub. Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan əsgəri xalqımıza sevinc bəxş etmək ərəfəsindədir. Döyüşlərdə qazanılan uğurlar qələbə ruhunun səviyyəsi kimi yaşanılır. Döyüşlərin iştirakçılarının təəssüratlarını dərc edirik.*

**"Azərbaycan Ordusu"**

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Mədət Məmmədli:**

- Xalqımızın şanlı tarixi qəhrəmanlıq səhifələri ilə zəngindir. Tarix qəhrəmanlar yaratdığı kimi, qəhrəmanlar da tarixi yaradırlar. Bu baxımdan deyə bilərəm ki, Vətəninə olan sonsuz sevgisiylə dillərə dastan olan Azərbaycan Respublikasının Milli Qəhrəmanı Mübariz İbrahimovun timsalında bütün igidləri-



mizin qəhrəmanlığı hər birimiz üçün bir nümunədir, örnəkdir.

Heç kəs anadan qəhrəman doğulmur. Onu dünyaya göz açdığı mühit, yaşadığı zaman, ətrafında cərəyan edən hadisələr yetişdirir. Bu gün döyüş meydanında olan silahdaşlarımın hamısı Qarabağ müharibəsində xalqımıza yaşadılan faciələrin, vurulan yaraların canlı şahidləridir. Biz illərdir evdə, məktəbdə, televiziya verilişlərində erməni vəhşilikləri barədə çox görüb eşitmişik. Yalnız azərbaycanlı olduqlarına görə uşaqlara, qadınlara, ağsaqqal-ağbirçəklərə işgəncələr verərək öldürdüklərini seyr edəndə bir çoxlarımızın ürəyinə indi döyüş meydanında göstərdiyimiz qəhrəmanlığın ilk sətirləri yazılırdı.

Başını dik tut, Vətən! Bu gün bir oğlun qəhrəmanlıq göstərib şəhid olursa, yerində minləri, on minləri qalır. Qeyrətli oğulların bir qarış torpağını da erməni işğalında qoymayacaqlar! Qələbə bizimlədir!

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Murad Sultanlı:**

- Vətən bir qaladır. Əzəmətli, vüqarlı bir qala. Qalanı dimdik ayaqda tutub, daim var olması üçün düşmənin qarşısını kəsənlər isə ürəkləri Vətən eşqi ilə döyünən, bir qarış Vətən torpağını canından əziz bilən oğullardır. O oğulların ürəkləri Vətən torpaqlarının bütövlüyü, tamlığı, istiqlaliyyəti üçün döyünür. Biz Vətənimizin işıqlı sabahları, aydın səmaları üçün döyüşürük.

Döyüşlər başlayan gündən etibarən təcrübəli komandirlərimizin döyüş ruhunun yüksək olması bizlərə də öz müsbət təsirini göstərməkdədir. Hər bir əsgərin uğuru onun komandirinin, ordusunun uğurudur. Bölməmizin şəxsi heyətinin mənəvi-psixoloji durumunun yüksək olması onların yeni-yeni uğurlar qazanması ilə nəticələnir. Biz döyüşçülərə işğaldan azad etdiyimiz ərazilərdə üçrəngli bayrağımızın dalğalandırmağın yaşatdığı hissi, verdiyi qüruru heç nə ilə müqyisə etmək mümkün deyil. Düşünəndə ki, əzəli torpaqlarımızın düşmən əsarətindən azad olunmasında sənin də payın var, bu hissi izah edəcək söz yoxdur. Bu hiss sadəcə yaşanılır...

Mən haqq savaşının döyüşçüsüyəm. Mən xilaskar əsgərəm. Mən bu gücü, qüvvəti xalqımdan, millətimdən alıram. Azad etdiyim ərazilərdə məni əcdadlarımın ruhu qarşılayır. Azərbaycan Ordusunu son qarış torpağımızı azad edənə kimi heç bir qüvvə durdura bilməz. Zəfər sənindir, Azərbaycan əsgəri!

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Kənan Müslümov:**

- Biz Vətənə, torpağa, bayrağa, xalqa sevgi ilə yaşayıb böyümüşük, formalaşmışıq. Vətən sevgisinin, Vətənə bağlılığın, Vətənin müqəddəsliyinin nə olduğunu tam anlamı ilə dərk edirik. Bu gün Vətənimizin işğal edilən ərazilərinin azad olunması üçün düşmənlə döyüş meydanında üz-üzə gələnlər həyatlarının hər dönəmində "Mənim Vətənim!" kəlməsinin qürurunu yaşayacaqlar.

Düşmənin hücumunun qarşısı alınıb, əks-hücum əməliyyatı başlanan gündən ordumuz illərdən bəri düşmən nəzarətində qalan strateji yüksəklikləri, doğma şəhər, kənd və qəsəbələrimizi azad edir. Düşmənə endirilən sarsıdıcı zərbələrdən təcavüzkar Ermənistan ordusu özünə gələ bilmir. Ordumuzun igid, qorxubilməz oğullarının göstərdiyi şücaət və rəşadət nəticəsində düşmənin ön xəttinin və müdafiəsinin dərinliyində yerləşən xeyli sayda canlı qüvvəsi, hərbi obyektləri və döyüş texnikası sərrast atəşlə məhv edilib. Ağır itkilərə məruz qalan düşmən tarixi torpaqlarımızdakı atəş mövqelərindən geri çəkilərək döyüş yoldaşlarını və silah-sursatlarını meydanda qoyaraq qaçmağa başlayıb. Bütün bunlar Azərbaycan əsgərinin döyüş ruhu, mə-



nəvi-psixoloji hazırlığı, yüksək vətənpərvərliyi sayəsində həyata keçirilir. Bizi bu qələbələrə ruhlandıran xalqımızın sevgisi, inamı və dəstəyidir.

Ali Baş Komandanımızın rəhbərliyi ilə düşməni əzəli torpaqlarımızdan qovmaq, illərdir işğalda olan torpaqlarımızı azad etmək bizim haqq işimizdir. Şanlı ordumuz bu haqq savaşından Böyük Qələbə ilə çıxacaq. Qarabağ Azərbaycandır və qələbə bizimlədir.

**Əsgər Ayaz Əhmədli:**

- Ata yurduna həsrət qalanların ürəyini üzən dərd, nisgil, çəkilən iztirab mənə də yad deyildi. Hərdən ata yurdundan iraq düşənlərlə söhbətləşirdik. Onlara təsəlli olası söz tapa bilmirdim. Onda evə pərişan dönərdim. Atam mənə deyərdi ki, böyüyərsən, hərbi xidmətə gedərsən, Ali Baş Komandanın əmriylə döyüşənlərin sırasında torpaqlarımızı işğaldan azad edərsiniz. Bu, qaçqın tay-tuşlarına ən böyük təsəlli olar.

Orta məktəbdə oxuyanda da, universitetdə təhsil alanda da, başqa həmyaşıdlarım kimi mən də bu niyyətlə yaşamışam. Mən də hərbi xidmətə gedəcəyim günü gözləmişəm. Həm də intizarla gözləmişəm...

Hərbi xidmətə çağırıldım...

Sentyabrın 27-də ordumuzun hissələri Ermənistan ordusunun hücumunun qarşısını qətiyyətlə aldı. Əks-hücum əməliyyatı düşmənin niyyətini puç etdi. Ali Baş Komandanın əmri ilə əks-hücum əməliyyatı torpaqlarımızı işğaldan azad edəcək döyüşlər kimi davam etdirildi. Vətən müharibəsi başladı. Döyüşlərə mənim xidmət etdiyim hərbi hissə də cəlb edildi. Düşmənin müdafiə səddi darmadağın edildi. Əsgərlərimizin qətiyyətlə döyüşməsi, artilleriyaçılarımızın son dərəcə dəqiq atışları düşmənin dayaq məntəqələrini, mövqelərini darmadağın etdi. İndiyə kimi yüzlərlə döyüş texnikasını, artilleriya qurğusunu, minlərlə canlı qüvvəsini itirən düşmən indi Azərbaycan Ordusunun qarşısında dayana bilmir. Əslində, buna gücü də qalmayıb...

Bizim də iştirak etdiyimiz əməliyyatda düşmən olduqca vacib strateji yüksəkliklərdən, iri yaşayış məntəqələrindən uzaqlaşdırıldı. Döyüşdə duruş gətirə bilməyən düşmən Gəncə, Mingəçevir, Tərtər, Bərdə şəhərlərinə raketlər atır. Bu, vandallıqdır. Dünya bunu görür, gördüklərinə, Ermənistanın beynəlxalq terror dövləti olduğuna bu gün münasibət bildirməsə də, sabah bildirəcək. Düşmən unutmasın ki, dinc əhaliyə qarşı bu qəddarlığı Azərbaycan əsgərinin döyüş əzmini də, qələbə ruhunu da yüksəldir. Füzuli uğrunda gedən döyüşlər təsdiqlədi ki, Azərbaycan Ordusu qüdrətli ordudur, düşmən onun hücumları qarşısında dayanmağa qadir deyil. Haradan kömək alırsa-alsın, hansı dövlətə əl açırsa-açsın, Azərbaycan əsgəri BMT-nin, digər beynəlxalq təşkilatların həll edə bilmədiyi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini qətiyyətlə həll edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciətində dediyi fikirlər bütün əsgərlər kimi mənim də qələbə ruhumu kükrədib: "Dünyada heç bir qüvvə bizi haqq yolundan döndərə bilməz. Dünyada heç bir ölkə bizim iradəmizə təsir edə bilməz. Biz haqq yolundayıq. Biz qalib gəlirik. Biz zəfər çalırıq və biz öz torpaqlarımızı geri alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik". Biz həmin gün üçün döyüşürük...

Vətən müharibəsi qələbələrlə davam edir. Suqovuşan, Hadrut, onlarla kənd, Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərləri düşməndən azad edilib. Ordumuzun qələbələri Şuşada, Cıdır düzündə tamamlayacaq, Ali Baş Komandanın döyüş əmri belədi.

Qürurlanıram ki, bu müqəddəs döyüşlərdə mən də iştirak edirəm. Əsgər dostlarım kimi mən də Vətən müharibəsində, müqəddəsliyin döyüşlərində şəhidlərimizin ruhunu sıramızda hiss edirik, onların döyüş yolunu tam qələbəyədək davam etdirəcəyik...



Qələbədən sonra mən də qalib əsgər kimi tərxis olunacam. Mən də dost-tanışlarına döyüşlərdən danışacam. Bizdən sonra hərbi xidmətə çağırılanlar Vətən müharibəsində qazanılan qələbənin varisi kimi xidmət edəcəklər...

Vətən müharibəsindən sonra dünya bir daha görəcək və etiraf edəcək ki, Qarabağ Azərbaycandır!

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Nurəddin Hümbətov:**

- Bu gün bütün dünya Azərbaycanın haqq savaşının canlı şahidi olur. Əks-hücum əməliyyatı ilə başladığımız bu yol haqq yoludur. Məlumdur ki, insana məx-



sus yüksək mənəvi keyfiyyətlər sırasında vətənpərvərlik hissi mühüm yer tutur. Vətənpərvərlik vətəndaşlıq tərbiyəsinin əsasında duran ən ülvi hissdir. Vətəndaşlıq borcu isə ilk növbədə insanın yaşadığı torpaqla, Vətənlə bağlıdır. Vətən borcu vətəndaşlıq borcudur. Bu gün Ali Baş Komandanın döyüş əmri ilə Vətən qarşısında müqəddəs borcumuzu ödəyir, əzəli və əbədi torpaqlarımızı işğaldan azad edirik. Müzəffər ordumuz qısa bir vaxt ərzində qazandığı uğurlarla bütün azərbaycanlıları sevindirdiyindən xəbərdarıq. Biz o dəstəyi döyüş meydanında da hiss edirik. Bizim bir amalımız var - torpaqlarımızı işğaldan azad etmək. Biz o amal uğrunda gecə-gündüz demədən Vətənə, xalqa, millətə vicdanla xidmət edirik.

Ordumuzun qazandığı qələbələr, işgaldan azad etdiyi ərazilərlə bağlı xoş müjdəli xəbərləri Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin xalqla bölüşməyi biz döyüşçüləri daha da qürurlandırır. Tam əminliklə deyə bilərəm ki, bu xoş xəbərlərin ardı olacaq.

Biz ən qızğın döyüş meydanında belə xalqımızın və dövlətimizin bizə olan inamını hiss edir, dəstəyini görürük. Bu isə bizə olduğumuz ərazinin relyefindən, hava şəraitindən asılı olmayaraq qələbələr qazanmağa stimul verir. Qüdrətli Azərbaycan Ordusunun əsgəri olaraq komandirlərimizin əmrlərinə sözsüz tabe oluruq ki, xalqımızın illərdir həsrətində olduğu günü yaxınlaşdıraq, tarixi torpaqlarımızı işğaldan azad edək. Tam əminliklə deyə bilərəm ki, Vətənimizin dilbər guşəsi Dağlıq Qarabağ və ətraf yeddi rayon işğaldan azad olunana qədər qəhrəmancasına döyüşəcək, bu yolda canımızı verməkdən belə çəkinməyəcəyik. Qələbə bizimdir!

**(Ardı 5-ci səhifədə)**

# Böyük qələbəyə az qalıb, Vətən!

(Əvvəli 4-cü səhifədə)

**Zabit Şəhriyar Quliyev:**
- Əks-həmlə əməliyyatları başlanandan döyüşlərdəyik. Əsgərlərimiz şir kimi vuruşurlar. Dəqiq atəş zərbələri ilə düşmənin zirehli texnikalarını, canlı qüvvəsini məhv edirik. Erməni qəsbkarları əks-həmlələrimiz qarşısında dayana bilməyib geri çəkilir. Qəsbkarlar geri çəkildikcə biz addım-addım irəliləyirik. Uzun illərdən bəri işğalda qalan torpaqlarımız azad olunur. Xalqımız bu xəbərlərə çox sevinir. Millətimizə belə sevincli günlər yaşatdığımıza görə çox xoşbəxtik. Əks-həmlə əməliyyatları uğurla davam edir. Döyüş meydanlarında hərbçilərimizlə bacara bilməyən ermənilər silahlarını mülki əhalimizə tərəf tuşlayır, şəhər və kəndlərimizi atəşə tuturlar. Təəssüflər olsun ki, mülki əhali arasında ölənlər və yaralananlar var. Amma biz ermənilərin mülki əhalisini hədəfə götürmürük. Çünki bizim məqsədimiz uzun illərdən bəri torpaqlarımızı işğalda saxlayan qəsbkarları məhv etməkdir. Ölkəmizin ikinci böyük şəhəri olan Gəncəyə raket atılması və insanların həlak olması, yaralanması bizi hiddətləndirdi. Dünyanın heç bir yerində, heç bir müharibəsində mül-



ki adamlar bu cür hədəfə alınmayıb, öldürülməyib. Belə şərəfsiz, ləyaqətsiz işlər yalnız erməni qəsbkarlarının əlindən gələr. Biz hərbçilər bütün bunların intiqamını yağılardan alacağıq. Yaramaz, bağışlanmaz əməllərinə görə işğalçıları peşiman edəcəyik. Qisas heç vaxt qiyamətə qalmayacaq. Yaxın günlərdə yurdumuzu işğaldan azad edəcək, düşməni Qarabağdan qovacağıq.

**Zabit İlham Abdullayev:**
- Qarabağ uğrunda döyüşlər başlayan ilk gündən, ilk dəqiqədən erməni qəsbkarlarının hədəflərinə dəqiq zərbələr endirməyə başladıq. Hər atılan mərmi düşmənin bir zirehli texnikasını, bir artilleriya qurğusunu məhv edirdi. Döyüşlər davam etdikcə düşmən canlı qüvvəsini, zirehli texnikalarını, eləcə də başqa döyüş vasitələrini itirirdi. Ordumuzun üstünlüyü açıq-aydın hiss olunurdu. Ağır itkilər verən işğalçılar qarşımızda çox duruş gətirə bilmirdilər. Artıq işğalçıların məğlub olacaqları an gəlib çatmışdı. Yağılar nə qədər çalışsalar da, müxtəlif manevrlər etsələr də, güllələrimizdən, mərmilərimizdən yayına bilmirdilər. Qəsbkarlar hara qaçsalar da, atəşimiz orada onları yaxa-



layırdı. Əks-həmləmiz qarşısında tab gətirməyən işğalçılar qaçmağa məcbur olurdular. Düşmən geri çəkildikcə biz irəli gedirdik. Bu mənzərəni gördükcə ürəyimiz açılırdı. Bu günləri, bu anları biz uzun illər arzulamışdıq. Şükürlər olsun ki, bizə bu günü görmək qismət oldu. Torpaqlarımızın işğaldan azad olunmasında iştirak etdik və bunu yaxından gördük. Bu gördüklərimiz heç zaman yaddaşımızdan silinməyəcək. Bütün bunlar Azərbaycan Ordusunun zəfərləridir, qələbələridir. Bu zəfərlər qəhrəmanlıq tariximizdə əbədi olaraq yaşayacaq. Gələcək nəsillər bu gün Qarabağın azadlığı uğrunda vuruşan zabit və əsgərlərlə həmişə fəxr edəcəklər!

**Əsgər Abdulla Abdullayev:**
- Uzun illər doğma torpaqlarımızın erməni qəsbkarlarının işğalında qalması hamımızı məyus edirdi. Ərazilərimiz işğal olunan vaxtlarda ordumuz yeni yarandığından elə də güclü deyildi. Amma illər keçdikcə ordumuz uğurlu islahatlar nəticəsində yenidən formalaşdı, daha da gücləndi. Belə güclü və qüdrətli ordusu olan xalqın torpaqları işğalda qala bilməzdi. Erməni işğalçılarının cəbhənin müxtəlif istiqamətlərində təxribatlar törətməsi müharibənin başlamasından xəbər verirdi. Yağılar gec-tez hücuma keçəcəkdilər. Ermənilər sentyabrın 27-də səhər-səhər cəbhənin müxtəlif istiqamətlərindən yeni ərazilərimizi zəbt etmək məqsədi ilə mövqelərimiz üzərinə hücum etdilər. Vaxt itirmədən torpaqlarımızın müdafiəsinə qalxdıq. Qısa müddət ərzində erməni qəsbkarlarının hücumlarını dəf edib geri oturtduq. Sonra düşməni məhv etmək üçün əks-hücum əməliyyatı başlandı. Torpaqlarımızı azad etməyin zamanı gəlmişdi. Düşmən əks-hücumlarımız qarşısında uzun müddət dayana bilməyib qaçmağa başladı. Qarabağımızı erməni işğalçılarından azad etmək üçün daim irəli can atırdıq. Yağıları məhv edə-edə dayanmadan irəliləyirdik. Elə ilk döyüşdə ermənilər xeyli canlı qüvvə və zirehli texnikasını itirdi. Bütün bunlar isə ermənilərin tez bir zamanda məğlub olacaqlarını göstərirdi. Bu gün döyüşlər ordumuzun üstünlüyü ilə davam edir. İnanıram ki, ordumuz az müddət ərzində işğala son qoyacaq, torpaqlarımızı yağılardan azad edəcək. Biz bu gün yurdumuzun azadlığı uğrunda gedən döyüşlərdə iştirak etməkdən qürur duyuruq. Torpaqlarımızı azad etməklə yanaşı, erməni işğalçılarından şəhidlərimizin intiqamını da alırıq.

**Əsgər Turan Əliyev:**
- Şəxsi həyatimiz Qarabağ uğrunda gedən savaşda rəşadət göstərir. Hamımız torpaqlarımızı işğalçılardan azad etmək naminə və Qələbə naminə vuruşuruq. Erməni qəsbkarları dəqiq və güclü zərbələrimiz qarşısında dayana bilməyərək geri çəkilirlər. Atəşkəsi pozub mövqelərimiz üzərinə hücum etmək düşmənə çox baha başa gəldi. Qəsbkarlara layiq olduqları yeri göstərdik. İşğalçılar özlərini güclü sanırdılar. Döyüşlər bunun tam əksini göstərdi. Əks-həmlələrimiz o qədər sürətli oldu ki, düşmən həm silah-sursatını, həm də meyitlərini döyüş meydanında qoyub qaçdı. Qəsbkarlar elə zənn edirdilər ki, döyüşdə uğur qazanacaq, yeni ərazilərimizi ələ keçirəcəklər. Biz ermənilərin bu istəklərini gözlərində qoyduq. İşğalçıları məğlub edərək geri oturtduq. Əminliklə deyə bilərəm ki, qarşıdakı döyüşlərdə də Qələbə bizim olacaq. Çünki biz düşməndən qat-qat güclüyük. Ürəyimiz Vətən eşqi ilə döyünür. Hazırlığımız yüksəkdir, biz mütləq Qələbə qazanacağıq. Qazanacağımız qələbələrimizlə doğ-



ma ocaqlarından didərgin düşən köçkünləri torpaqlarına qaytaracağıq. Bu müqəddəs vəzifənin öhdəsindən bacarıqla gələcəyik. Torpaqlarımız azad olunduqca sevincimiz artır. Ordumuzun uğurlu döyüşlərinin xəbərini eşitdikcə, daha da rəşadətlə döyüşürük. Hadrut qəsəbəsinin və sonra Füzuli şəhərinin erməni qəsbkarlarından azad olunması xəbəri bizi növbəti zəfərlərə ruhlandırır. Qarşıda bizi böyük uğurlar gözləyir. Bütün cəbhə boyu erməni qəsbkarlarına ağır zərbələr vurmaqda davam edirik. İşğaldan azad olunmuş torpaqlarımızda bayrağımız dalğalandıqca qürur duyuruq. Qazandığımız bu uğurlar, zəfərlər hər gün Böyük Qələbəni yaxınlaşdırır.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Şamil Yusifov:**
- Qarabağ uğrunda gedən döyüşlərdə iştirak etməkdən qürur duyuram. Əsgər dostlarımla çiyin-çiyinə verərək yurdumuzun azadlığı uğrunda vuruşuruq. Oğullar Vətəni qorumaq üçün dünyaya göz açır. Biz bu gün yurdumuzun qurtuluşu uğrunda döyüşürük. Döyüşürük ki, erməni işğalçılarını məhv edək, torpaqlarımızdan qovub çıxardaq. Güclü zərbələrimiz qarşısında dayana bilməyən yağılar ağır itkilər verərək geri çəkilirlər. Addım-addım qəsbkarları torpaqlarımızdan qovuruq. Döyüşlərə qələbə əzmi ilə atılırıq. Elə ilk döyüşdəcə erməni qəsbkarlarını üstələdik. Biz işğalçılara məğlubiyyətin, itkilərin nə demək olduğunu göstərdik. Növbəti zəfərlər qazanmaq üçün yenə də düşmən üzərinə gedirik. Yağılardan şəhidlərimizin intiqamını, qisasını alacağıq. Bu gün də qəsbkarları məhv edirik, sabahkı döyüşlərdə də onları məğlubiyyətə uğradacağıq. Ürəyimiz qisas hissi ilə çırpınır. Çox yaddaqalan və şərəfli günlər yaşayırıq. Uzun illər işğal edilən şəhər və kəndlərimiz bir-bir işğaldan azad olunur. Buna hamımız sevinirik. Hələ sevincli günlərimiz çox olacaq. Çünki uğurlu döyüşlərimiz davam edir. İşğaldan azad olunmuş torpaqlarımızda bayrağımızı dalğalanan görəndə sanki bütün dünyanı bizə verirlər. Yaxın günlərdə qalibiyyət bayrağını Şuşada, Xankədidə asacağıq. Bilirəm ki, o günü bütün xalqımız gözləyir. Xalqımızın gözünü yolda çox qoymayacağıq.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər İsmayıl Hüseynov:**
- "Həyəcan" çağırışı ilə ayağa qaldırılanda komandir dedi ki, erməni qəsbkarları mövqelərimizə hücum ediblər. Bir dəqiqə də olsun vaxt itirmədən ön xəttə yollandıq. Tələsirdik, çünki düşmən daha çox irəliləyə bilərdi. Əmrə əsasən, yurdumuzun müdafiəsinə atıldıq. Neçə vaxtdan bəri susmuş silahlar bir an içində od püskürürdü. Özümüzə əlverişli mövqe seçib düşmənin hücumunu dəf edirdik. Heç nədən qorxub çəkinmədən sərrast atəşlə düşmənə ardıcıl zərbələr endirirdik. Çox keçmədi ki, erməni qəsbkarlarının hücumlarını dayandırdıq. Elə ilk döyüşdə yağılar xeyli itki verdilər. Getdikcə işğalçıların atəş nöqtələri susdu. Zabit və əsgərlərimiz gülləni yağıların üstünə ara vermədən yağdırır, qəsbkarlara göz açmağa macal vermir, bir-bir onları məhv edirdilər. Bir azdan işğalçıların üzərinə hücum etmək əmri verildi. Düşmən çox müqavimət göstərə bilməyib qaçmağa başladı. Döyüşlərin ilk günü, ilk qələbə sevincini yaşadıq. Elə bu sevinc hissləri ilə də düşməni yurdumuzdan qovmağa başladıq. Əvvəllər qəsbkarların güclü olduqlarını güman edirdik. Amma son döyüşlər göstərdi ki, bizim ordumuz daha güclü, daha qüdrətlidir. Elə bu cür sürətlə geri qaçmaqlarından da hiss olunur ki, düşmən ordusu bizdən çox gücsüzdür. Deməli, biz döyüş meydanlarında onlara qalib gəlib doğma Qarabağımızı, işğalda olan torpaqlarımızı erməni qəsbkarlarından azad edəcəyik. Azərbaycan Ordusu çox güclüdür, Azərbaycan əsgəri çox cəsurdur. Biz düşmənə qalib gələcək, ölkəmizin ərazi bütövlüyünü tam təmin edəcəyik.

**Kiçik çavuş İkram Kərimov:**
- Qarabağ uğrunda gedən döyüşlərdə iştirak etmək çox qürurludur. Bu böyük tarixi bir hadisədir. Uzun illər torpaqlarımızın işğalda qalması xalqımızı çox narahat edirdi. İndi ordumuz bu narahatçılığa son qo-



yur. Addım-addım erməni işğalçılarını geri sıxışdırır, yurdumuzu qəsbkarlardan azad edirik. İşğaldan azad olunmuş torpaqlarımıza baxanda ürəyim ağrıyır. Uçulub-sökülmüş, dağıdılmış evlər haray çəkib əsl sahiblərini çağırır. Doğma ocaqlarından didərgin düşmüş insanlar neçə illərdir ki, ata-baba yurdlarının həsrəti ilə yaşayırdılar. Şükürlər olsun ki, ordumuz bu yerləri azad etdi, yurd həsrəti çəkən insanları sevindirdi. Bir müddətdən sonra qaçqınlar, köçkünlər öz yurd-yuvalarına qayıdacaqlar. Burada həyat əvvəlki axarına düşəcək, kənd və şəhərlər abadlaşacaq, təbiətin üzü güləcək. İnsanlar şad-xürrəm yaşayacaqlar. Hələ qarşıda bizi neçə-neçə uğurlu döyüşlər gözləyir. Düşmən ağır itkilər verib geri çəkilsə də, müqavimət göstərməyə can atır, işğaldan azad olunmuş yerlərə təzədən hücumlar edirlər. Qəsbkarların bu hücumlarının qarşısı qətiyyətlə alınır. Yağılar hər addımda ağır itkilərə məruz qalır. Erməni işğalçıları gücdən düşsələr də, məğlub olduqlarını boyunlarına almaq, ağ bayraq qaldırmaq istəmirlər. Hələ də silahlarından möhkəm yapışıb döyüşü davam etdirirlər. Amma düşmənin ağ bayraq qaldırıb, silahını yerə qoymasına günlər qalıb. O gün uzaqda deyil. Biz davamlı hücumlarımızla, zəfərlərimizlə erməniləri Qarabağdan qovub çıxaracaq, onları qarşımızda diz çökməyə məcbur edəcəyik.